# Nizami və kino

Bacarsan hamının yükünü sən çək,

İnsana ən böyük şərəfdir əmək.

Sən də əldən düşüb yorulsan əgər,

Sənin də yükünü bütün el çəkər.



Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin doqquz əsr bundan əvvəl yazdığı bu qiymətli sətirlər bütün zamanlarda müasir səslənmiş, bu gün də müasir səslənməkdədir. Çünki söz ustadı Nizami bütün əsərlərini xalqın zəngin yaradıcılıq xəzinəsinə, onun mədəni sərvətlərinə arxalanaraq yaratmış, gələcək nəsillər üçün yadigar qoymuşdur.

Dünya ədəbiyyatı və mədəniyyəti xəzinəsinə çox qiymətli töhfələr vermiş N.Gəncəvi söz sənətinin sönməz günəşidir. Onun yaradıcılığı xalqımızın mənəvi həyatının əvəzolunmaz bədii nailiyyəti kimi qədim Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin ən parlaq səhifələrini təşkil edir. Təsadüfi deyil ki, Nizami irsi ədəbiyyat və incəsənət xadimlərinin bir çox nəsillərini ruhlandırmış və onlar şairin həyat və yaradıcılığına dair bir sıra məşhur əsərlər yaratmışlar. Fırça və tişə ustalarının, bəstəkarların, şair və yazıçıların ən yaxşı əsərlərində Nizami mövzusunun məharətlə işlənməsi buna sübutdur.

## Nizami Gəncəvi haqqında filmlər



### *Nizami (film, 1941)*

1941-ci ildə SSRİ böyük şair Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinə geniş hazırlıq gördüyü vaxt sənədli kino ustaları da dahi söz ustasına film həsr etməyi qərara almışdılar. Lakin faşist Almaniyasının SSRİ-yə qəfil hücumu Azərbaycan xalqının iftixarı Nizami Gəncəvinin yubileyinin yüksək səviyyədə keçirilməsinə imkan vermədi. Buna baxmayaraq respublikamızda şairin yubileyi milli poeziya bayramı kimi qeyd edildi.

Yubiley şənlikləri tarixi-bioqrafik kinooçerkdə öz əksini tapmışdır.

**Filmin heyəti:** rejissor A.Naroditski, ssenari müəllifi Əlibala Ələkbərov, Əbdülrəhman Minski, operator Əlibala Ələkbərov, bəstəkar Rauf Hacıyev, səs operatoru Y.Qomerov

## *Xalq şairi (film, 1947)*

Tarixi-bioqrafik kinooçerk dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuş, burada əsasən şairin yubileyi ilə bağlı mühüm tədbirlər lentə alınmışdır.

Filmdə şairin 800 illik yubileyinin yenidən qeyd edildiyi günlər, Moskvada keçirilən təntənəli yığıncaq, qonaqların Bakı vağzalında qarşılanması, Nizami adına muzeyin açılışı öz əksini tapmışdır.

**Filmin heyəti:** ssenari müəllifi Şua Şeyxov, operator Mirzə Mustafayev, Seyfulla Bədəlov, Y.Muxin, musiqi tərtibatı German Krupkin, səs operatoru İlya Ozerski, montaj rejissoru: Şua Şeyxov.

## *Nizami (film, 1959)*

Film dünya ədəbiyyatı xəzinəsinə çox qiymətli töhfələr bəxş etmiş dahi Azərbaycan şairi, söz sənətinin günəşi - Nizami Gəncəvinin həyat və yaradıcılığına həsr olunmuşdur. Filmdə belə bir fikir təsdiq olunur ki, şairin yaradıcılığı xalqımızın mənəvi həyatının əvəzolunmaz bədii nailiyyəti, qədim Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin ən parlaq səhifələridir.

**Filmin heyəti və üzərində işləyənlər:** rejissor Mikayıl Mikayılov, ssenari müəllifi Əhmədağa Qurbanov, operator Leonid Zbudski, bəstəkar Zakir Bağırov, səs operatoru Əziz Şeyxov.

## *Nizami yurdu (film, 1968)*

Film qədim Nizami yurdu olan Gəncə şəhərinə həsr edilmişdir. Filmdə qocaman Kəpəz, Göy-göl, qədim Gəncə şəhəri, şəhərin yaşıllığa qərq olmuş küçələri, Nizami məqbərəsi, alüminium zavodu, prospektlər, tarixi abidələr, yeni binalar, xalçaçılıq kombinatı və s. əks etdirilmişdir.

Film "SSRİ-yə səyahət" silsiləsindəndir.

**Film üzərində işləyənlər:**

Rejissor: Seyfulla Bədəlov

Ssenari müəllifi: Nurəddin Babayev

Operator: Seyfulla Bədəlov

Səs operatoru: Şamil Kərimov

## *Nizami Gəncəvi (film, 1976)*

Kinolent dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığına həsr olunmuşdur. Film yuxarı sinif şagirdlərinə bədii söz ustasının yaradıcılığı ilə yaxından tanış olmağa, onun irsinin Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatına təsirini öyrənməyə kömək edir.

Film Azərbaycan Maarif Nazirliyinin sifarişi ilə çəkilmişdir.

**Film üzərində işləyənlər:**
Rejissor: Elxan Qasımov
Ssenari müəllifi: Teymur Əhmədov
Operator: Sərdar Vəliyev
Səs operatoru: Şamil Kərimov

## *Nizami (film, 1982)*




Film-pritça dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuşdur. Filmdə Nizami roluna dünya şöhrətli bəstəkar-müğənni Müslüm Maqomayev çəkilmişdir.

Filmdə şairin obrazı, o uzaq illərdə Azərbaycan xalqının siyasi və sosial həyatının ab-havası, insan münasibətlərinin mürəkkəb dünyası öz əksini tapmışdır. Bu film insanın tarixdə rolu, onun adamlar qarşısında borcu haqqında düşüncələrdir. Nizaminin mənəvi idealı ilə reallıq arasında uyğunsuzluq şairin insana və ədalətə inamını qıra bilməmişdir.

Filmdə Üzeyir Hacıbəyovun "Sənsiz" romansından istifadə edilmişdir.

**Filmin heyəti və üzərində işləyənlər:** ssenari müəllifi: İsa Hüseynov, Eldar Quliyev, quruluşçu rejissor Eldar Quliyev, quruluşçu operator Arif Nərimanbəyov, quruluşçu rəssam Mayis Ağabəyov, bəstəkar Qara Qarayev, səs operatoru Kamal Seyidov, rejissor Akif Rüstəmov, operator Yuri Varnovski, montaj edən Tamara Nərimanbəyova, geyim rəssamı Mark Qorelik, Afət Məmmədova, məsləhətçi Ziya Bünyadov (tarix elmləri doktoru, akademik), R. Əliyev (filologiya elmləri doktoru), çalır: SSRİ Dövlət Kinematoqrafiya Komitəsinin Simfonik Orkestri, dirijor Elşad Bağırov, redaktor: N. Qlaqoleva, Ramiz Rövşən, filmin direktoru Tələt Rəhmanov

Mahnıları ifa edir: Müslüm Maqomaye

Azərbaycan animatorları da Nizami poeziyasının hikmətamiz misralarından ruhlanaraq, dahi şairin əsərlərinin motivləri əsasında “Fitnə” (1970, rejissor A.Axundov), “Şah və xidmətçi” (1976, rejissor N.Məmmədov), “Xeyir və şər”

(1980, rejissor N.Məmmədov) filmlərini yaratmışlar. Bu gün nəinki uşaqlar, hətta böyük yaşlı tamaşaçılar da tərbiyəvi əhəmiyyətə malik həmin animasiya filmlərinə maraqla baxırlar.

Bütün bu görülən işlərə baxmayaraq, Azərbaycan kinematoqrafçıları və digər sənətkarlarımız bütün dövrlərin mütəfəkkir şairi və filosofu Nizami Gəncəvinin yaradıcılığına bundan sonra da dönə-dönə müraciət etməli, onun həyat və yaradıcılığından ilhamlanaraq dəyərli sənət əsərləri yaratmalıdırlar.